Sentyabrın 11-dən 16-dək Təhsil Nazirliyi və Almaniya Əməkdaşlıq Cəmiyyəti "Almaniya Qafqaz partnyor şəhərləri arasında əməkdaşlıq" birgə layihəsi çərçivəsində Sumqayıt şəhərində valideynlər üçün "Güclü valideynlər- güclü uşaqlar" mövzusunda təlim kursları keçirib.

Məqsəd istiqamətləndirici tərbiyə modeli vasitəsi ilə valideynlərdə uşaqları tərbiyə etmək bacarığını gücləndirmək, onlara dəstək vermək və ailədə uşaq hüquqlarının öyrənilməsinin əhəmiyyətini artırmaqdan ibarət olub.

Təlimlər Almaniyadan dəvət olunmuş beynəlxalq ekspert Anneta Ştokker və Sumqayıt şəhər 16 saylı məktəbin psixoloqu Samirə Əhmədli tərəfindən keçirilib.

Təlim kurslarında Sumqayıt Şəhər Təhsil Şöbəsinin əməkdaşları, məktəb, lisey və bağça müəllimləri iştirak edib.